

*Musa Xanbabazadə*

## *Sabir Rüstəmxanlım mənim*

**(şairin 74 yaşına)**

**Poeziyada şir-pələngsən,
Prozada bir nəhəngsən.
Publisistikada cəngsən,
Sabir Rüstəmxanlım mənim.**

**”Azərbaycan irticası” -
Bir millətin yurd acısı.
”Bütövlük” - qəzəb qamçısı,
Sabir Rüstəmxanlım mənim.**

**”Vətənsiz”- mühacir dərdi,
”Cavad xan”ın bir el mərdi.
Əhməd Ağaoğlun nərdi,
Sabir Rüstəmxanlım mənim.**

**”Astar” - ömrün min gizlini,
”Didərginlər” - ruh əzgini.
Zənginlərin ən zəngini -
Sabir Rüstəmxanlım mənim.**

**”Ömür kitabı” qatardır,
”Şair və Şər” bahadırdır.
”Göy türklər”lə bəxtiyardır
Sabir Rüstəmxanlım mənim.**

**Bərpaçıdır ”Qan yaddaşı”,
Bizə gərəkməz yad daşı.
”Göy Tanrı” - türklər savaşı,
Sabir Rüstəmxanlım mənim.**

**”Atamın ruhu” itməzdir,
”Orxonla görüş” bitməzdir.
”Gəncə qapısı” yenməzdir,
Sabir Rüstəmxanlım mənim.**

**Kövrəltdi səni Mərziyə,
Ruhuna yazdın mərsiyə.
Ahın qalxdı yeddi göyə,
Sabir Rüstəmxanlım mənim.**

**Təbriz yaralı bir ərdi,
Ruhu səninçin mələrdi,
Dilində Təbriz göyərdi,
Sabir Rüstəmxanlım mənim.**

**Elə Təbriz deyə-deyə
Tutulmusan xoş sevgiyə.
Sığmayırsan yerə-göyə,
Sabir Rüstəmxanlım mənim.**

**Təşnə idin azadlığa,
Əlin yetmirdi şadlığa.
Qəzəbliydin bərbadlığa,
Sabir Rüstəmxanlım mənim.**

**Məsləklər tutulmuşdu rəngə,
Qorxuluydu hər tin, döngə.
Axır ki, atıldın cəngə,
Sabir Rüstəmxanlım mənim.**

**Öz dilinə pərvanəsən,
Öz elinə divanəsən.
Könül açan təranəsən,
Sabir Rüstəmxanlım mənim.**

**Öz elində keşikçisən,
Dünya görmüş əkinçisən.
Çağdaş ruhlu bir dinçisən,
Sabir Rüstəmxanlım mənim.**

**Gündüz, Cəmil - iki qalan,
Nərgiz, Aydan - iki qaplan.
Nəvələrin ağaran dan,
Sabir Rüstəmxanlım mənim.**

**Xalq elçisi deputatsan,
Qırılmaz polad qanadsan,
Qamçı götürməz Qıratsan,
Sabir Rüstəmxanlım mənim.**

**Səbr-dözümdə fil azmanlım,
Seçilmişim, adlı-sanlım,
Türk qanlım, islam imanlım,
Sabir Rüstəmxanlım mənim.**

**Ucalardan da ucasan,
Cavanlaşan nur qocasan,
Bir mürşidsifət xocasan,
Sabir Rüstəmxanlım mənim.**

**16 fevral 2020**

## *QÜRRƏLƏNMƏ, LOVĞALANMA*

Koronavirus, koronavirus,
ey dünyanı dərdə-qəmə çalxalayan qara kabus!
Hansı ana doğdu səni, hansı ata əkdi səni?!
Sən dünyaya gələn kimi Əhrimənmi
öz bağrına basdı səni?!
Hardan gəldin, necə gəldin,
Gündüz gəldin, gecə gəldin, - bilinmədi.
Amma gəldin, yaman gəldin,
Heç vermədin aman, gəldin.
Dünyanı aldın cənginə,
rəxnə saldın ölkələrin ahənginə.

O bəd-uğursuz ayağın Yer üzünə dəyən kimi
yaxdın oda yaxın-uzaq ölkələri,
yaxın-uzaq bölgələri.
Addımladın sürət ilə həm Şimala, həm Cənuba,
üz çevirdin qoca Şərqə, əl uzatdın cavan Qərbə.
Və başladın Yer adlı bir qosqocaman planetlə
sonugörünməz bir hərbə.
Hara dəydisə ayağın, kimə tuşlandı yarağın
fəryad-nalə qalxdı göyə,
ömürləri, taleləri düyünlədin göy əsgiyə.
Qabağında hamı aciz, hamı nalan, hamı giryan.
Bütün dünya həkimləri mat-məəttəldir-
baxır gözün döyə-döyə.

Ölü zonaya çevirdin İtaliyanı, İspaniyanı,
Fransanı, Amerikanı.
Ağlar qoydun Hindistanı, Vatikanı.
Gürcüstanı saldın dərdə.
Yer-göy ağlar İsveçrədə.
Ermənistan öz başının hayındadır,
ölüsünün-dirisinin vayındadır.
Belə ağır günündə də əl çəkməyir Vətənimdən
o bədxislət, o bədheybət, o şeytanın törəməsi.
Bəlkə, səndən yoğrulubdu o alçağın acxəmrəsi?!

Ey dəhşətli, ey amansız koronavirus!
gözəgörünməz zərbənə tablamayır nə fars, nə rus.
İki böyük bir dövləti gör nə günə qoyubsan sən,
Hər ikisin gözlərini amansızca oyubsan sən.

Dəhşətindən eston ağlar, türkmən ağlar, latış ağlar,
qazax ağlar, özbək ağlar, talış ağlar,
tatar, başqırd, tacik, çeçen, qırğız ağlar.
balkar ağlar avar ağlar, qaqauz ağlar!
Ağlar, ağlar cəhənnəmə döndərdiyin Yer kürəsi,
Ağlar okean sahilləri, dənizlərin bənd-bərəsi.

80 milyonluq Türkiyə sinə gərir bu dəhşətə.
O, bac verməz, diz qatlamaz göydən yağan min vəhşətə!
Rəcəb Teyyub Ərdoğan öz xalqıyla bir cəbhədə dayanır,
Hamıdan gec yatsa belə, hamıdan tez oyanır.
Türkiyəyə qüvvət verir o KİŞİnin hər çıxışı.
Nitqi elə alovludu bahara döndərir qışı!
(O öndərin mükafatı el sevgisi, el alqışı!)

Türkiyənin koronavirus dartışması, koronavirus savaşı
Türk xalqının zəfəriylə başa çatar.
Koronavirus öz başını götürüb
türk torpağından qaçar.
Azərbaycan ayaqdadır, Azərbaycan səfərbərdir.
Hər qarışı, hər addımı, hər bir daşı hünərvərdir.
Baş Qərargah nə deyirsə, bizlər əmrə hazır əsgər.
”Evdəqal” - basılmaz qala. Sığınmışıq o qalaya,

Vermişik kürək-kürəyə, vermişik arxa-arxaya.
Qala canı-başı ilə qoruyur yurd vətəndaşın.
Dözümümüz, səbrimizlə biz əzərik koronavirusun başını,
Bu torpaqda dəfn edərik o məlunun göz yaşını.
Qoymarıq ki, məmləkətdə qalsın daş üstə daşını.
”Evdəqal”ın hər əsgəri
öz evinin-ocağının bir sağlamlıq elçisidir.
Gözəl, xoşbəxt sabahların və günlərin bəkisidir.

Koronavirus!
Sındırmısan qatarların dəmir ayaqlarını,
Soldurmusan xanım-xatun dəmir qadınların yanaqlarını,
Qırmısan uçaqların polad qanadlarını.
Çökdürmüsən sənayeni, inşaatı, əkin-biçini.

Böyrüüstə yıxmısan
dünyaya meydan oxuyan nəhəng Çini, azman Çini!
Dənizləri, okeanları həsrət qoydun gəmilərə,
Qoymayırsan kəndli oğlu bir baş çəksin zəmilərə.
Haray çəkir əlindən oliqarxlar, biznesmenlər,
Haray çəkir fermerlər, haray çəkir menecmenlər.
Dünya sənin əlində oyuncaqdı, oyuncaq.
Sən dünyanın kürəyində qana batmış bir bıçaq!

Koronavirus! Nə qürrələn, nə lovğalan!
Dünya gücü, dünya əzmi vahid böyük bir cəbhədə
başlayıbdı səninlə bir şanlı hərbə.
Bu savaşda, bu döyüşdə o vahid güc
qazanacaq möhtəşəm bir qələbə!
Bu qələbə sevinc-şadlıq bəxş edəcək
kədər yüklü, qəm bükülü neçə ürəyə, qəlbə!
Bizimlədir qələbə!

11.05.2020

Ədalət.- 2020.- 14 may. S. 6.